# Avropada Gənc Psixiatrlar üçün hansı imkanlar var?

**Giriş**

Ötən əsrdə, psixiatriya elminin inkişafında əhəmiyyətli irəliləyişlər baş verib. Biopsixososial yanaşma xəstəliklərin mualicəsində boyuk rol oynayib.

Karyerasını yeni başlayan gənc psixiatrlar şəxsi praktikalarında çətinliklərlə üzləşərkən belə qənaətə gəliblər ki yalnız əməkdaşlıq şəklində psixiatriyada olan problemləri və çətinlikləri asanlıqla aradan qaldıracaqlar. Buna görə də son on illikdə gənc psixiatrlar yerli və milli assosiasiyalarda bir artım yaratmışdılar.

2007-ci ildə Avropa Psixiatriya Assosiasiyası nəzdində (EPA) "Gənc Psixiatrlar Komitəsi" yaradılıb. Onlar qeyri -formal şəkildə öz ideyaları və çətinliklərini müzakirə edirdilər. 2010-cu ildən bu Komitə, Psixiatrların Erkən Karyerası Komitəsi (Early Career Psychiatrist Commitee) kimi tanınmışdır.Eyni zamanda, nəzərinizə çatdırmaq istəyirik ki, cari ilin, mart ayından etibarən Azərbaycan Psixiatriya Asossasiyasının tərkibində Gənc psixiatrlar bölməsi fəaliyyət göstərir. Motivasiyası yüksək olan,yeniliklərə açıq olan gənc psixiatrları aktiv əməkdaşlığa səsləyirik.

Avropa Psixiatriya Assosiasiyası beynalxalq professional təşkilat kimi cavan kadrların peşəkar inkişafına və onların inteqrasiyasına, treninqlərdə və elmi konqreslərdə iştirakına böyük dəstək göstərir. Eyni zamanda, gənc psixiatrlar effektiv əməkdaşlıq nəticəsində öz motivasiyaları, ruh yüksəkliyi və yaradıcılığı ilə Avropa Psixiatriya Assosiasiyasına yeni nəfəs veriblər.

Niyə Psixiatrlarin Erkən Karyerası Komitəsinin üzvü olmaq vacibdir?

Əgər sizin peşəkar təcrübəniz 5 ildən çox deyil və ya yaş 40 yaşına çatmayıb, onda Psixiatrların Erkən Karyerası Komitəsinin üzvü olmaq məsləhət görülür.Bu üzvülük Avropada olan gənc kolleqalarınız ilə səmərəli əməkdaşlığa yardım edəcək. Maraqlı tədqiqatlarda və təhsil proqramlarında

siz də iştirak edə bilərsiz. Eyni zamanda,bu qoşulma gənc psixiatrlar üçün öz professional inkişafını və karyeranın gücləndirilməsində, eləcə də öz fikirlərini eşitdirmək və nəzərə alınması kimi imkanlar yaradır.

**Fəaliyyətlər**

Psixiatrların Erkən Karyerası Komitəsinin 4 istiqamıti var

- Tədqiqat
- Publikasiyalar (nəşrlər)
- Peşəkar inkişaf
- Qurumlar və görüşlər

"Tədqiqat" bölümündə Avropa ölkələrində beynəlxalq elmi layihələri təşkil etmək və tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün cavan psixiatrlara imkanlar yaradılır. Bundan əlavə, tədqiqat fəaliyyətinə başlamaq üçün lazım olan resursları tapmaq üçün yardım göstərir.

"Publikasiyalar" bölməsi rəsmi vebsaytında yerləşdirilən müxtəlif online təhsil materialların yayılmasında, cavan psixiatrların məqalələrin çap olunmasında boyük köməklik göstərir. Gənc psixiatrlar tərəfindən hazirlanmış iki kitabın nəşr olunması saytın nəticəsi kimi hesab oluna bilər.

"Professional İnkişaf" bölməsi təcrübə-təlim və təhsil imkanlarından faydalanmağa kömək edir.Müxtəlif təhsil proqramları, kursları, seminarları və digər təhsil fəaliyyətlərin keçirilməsində böyuk rol oynayır. Bundan əlavə, bu bölmə gənc psixiatr ehtiyaclarını və təlabatlarını öyrənmək üçün sorğular keçirir.

Axirinci lakin ən cəlb edici bölmə "Görüşlər və Assosiasiyalar" adlanır. Dünyada olan bütün Psixiatriya Assosiasiyaları ilə ümümdünya psixiatriya Assosiasiaysının çərçivəsində cavan psixiatrların seksiyası, eləcə də Avropa psixiatr residentlərin Federasiyası (EFPT) və diqər qənc təşkilatlarla fəal əməkdaşlıq edir. Görüşlərdə və tədbirlərdə iştirak etməkdə psixiatrlar üçün imkanlar yaradır, onları dəvət edir və əlaqələr yaradır.

**İmkanlar**

Psixiatrlarin Erkən Karyera Komitəsi Avropa ölkələrində yerləşən ən məhşur psixiatriya xəstəxanalarında praktika keçmək üçün sərait yaradır, təqaüdlər ayrılır. "Təcrübə Bölüşmək Proqramı", 2-8 həftik təlim keçmək təklif edir.

Psixiatrların Erkən Karyera Komitəsinin məqsədləri gənc həmkarların fikirlərini öyrənmək, təcrübələri ilə bir biri ilə bölüşmək və Kongresslərdə iştirak etməkdir. Avropa Psixiatriya Konqreslərində hər il gənc psixiatlar üçün ayri xüsusi seminarlar, ekspertlə müzakirələr təşkil olunur Həmçinin, 2007-ci ildən təqaüd proqramları, onların qeydiyyatı, səyahət və yaşayış xərclərini ödəmək üçün dəstək göstərirlər.

Psixiatrların Erkən Karyera Komitəsi həmişə gənc psixiatrlarla əməkdaşlıq etməyə hazırdır.

Əlavə məlumat www.europsy.net/what-we-do/early-career-psychiatrists/ mövcuddur.



**Avropa Psixiatriya Assosiasiyasının Gənclər komitəsinin üzvləri:**
(*Soldan*) *Mariana Pinto da Costa, Jamila Ismayilova, Daria Smirnova, Özge Kilic, Tomasz M.Gondek, Tove Morgen, Alina Petricean*